# Qazaxda Uşaq İncəsənət Festivalının birinci mərhələsinə həsr olunmuş tədbir keçirilmişdir

**Qazaxda Mədəniyyət, Elm və Təhsil nazirliklərinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə respublikamızda istedadlı uşaqları kəşf etmək, onların yaradıcılığını ön plana çıxarmaq, milli mədəniyyətə olan sevgini gücləndirərək zəngin mədəni irsimizi gələcək nəsillərə ötürmək məqsədi ilə Uşaq İncəsənət Festivalının 1-ci turu keçirilmişdir.**



Əvvəlcə tədbir iştirakçılarına rayon Heydər Əliyev Mərkəzi tərəfindən Ulu Öndərin, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət sahəsinə, mədəniyyət işçilərinə göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət sərgi təqdim olunmuşdur. Sərgidə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, Qazax Dövlət Rəsm Qalereyasının, Mədəniyyət Mərkəzinin, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əl işlərindən ibarət sənəd nümunələri təqdim edilmişdir. Sonra Qazax Dövlət Dram Teatrı aktyorlarının ifasında Azərbaycanın şair və mütəfəkkirlərinin obrazları canlandırılmışdır. Qonaqlar sərgi ilə tanış olduqdan sonra Qazax şəhər 1 və 2 saylı Uşaq Musiqi məktəblərinin aşıqlar, nağaraçalanlar, xor kollektivlərinin, xalq çalğı alətləri ansambllarının çıxışlarını dinləmişlər.

Azərbaycan. - 2025.- 4 may (№90).- S.12.